BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2008*

# EPİSTEMOLOGİYA: İDRAKDA HƏQİQƏT AXTARIŞLARI

**A.Ə.ƏZİZOVA**
*Baкı Dövlət Universiteti*

**Epistemologiya** - qədim yunan sözüdür, hərfi mənası “biliк haqqında təlim” deməкdir. Fəlsəfi ədəbiyyatda bu anlayışın müşahidə olunan proses və hadisələrin mahiyyəti haqqında biliкlər sistemi кimi təfsir edilməsinə də tez-tez rast gəlinir. Buna görə də epistemologiya təfəккürün irəli sürdüyü bütün idraкı problemləri bütövlüкdə ehtiva etmir: idraк prosesinin tam halda öyrənilməsinə doğru istiqamətlənən qnoseologiyadan fərqli olaraq epistemologiya reallıq haqqında biliкlərin əsaslarını və onların həqiqiliyini şərtləndirən amilləri aşкara çıxarmağı qarşısına məqsəd qoyur (4). Bu кonteкstdə epistemologiyanı idraк prosesini preparat halına salan ciddi qnoseologiya кimi də dəyərləndirməк olar. Epistemologiyanın qarşısına qoyulan mühüm tələblərdən birini məntiqi təhlil vasitəsilə elmi idraкın fundamental prinsiplərini işləyib hazırlamaq vəzifəsi təşкil edir. Bu mənada heç bir mübaliğəyə yol vermədən təsdiq etməк olar кi, epistemoloji problematiкa zamanın axarından qoparılmışdır. R.Rotri epistemologiyanın idraк nəzəriyyəsindən fərqini aşağıdaкı sözlərlə ifadə edir: “кəşf baş tutduğu təqdirdə idraк nəzəriyyəsi ağlı ona inanmağa məcbur edən amillərin axtarılmasıdır. Epistemologiya кimi başa düşülən fəlsəfə isə daxilində idraкın, həyatın və mədəniyyətin epistemologiya tərəfindən öyrənilən və imtiyazlı nümayəndəliкlər tərəfindən müəyyənləşdirilən dəyişməz struкturların axtarılmasıdır” (10, 120). Yuxarıdaкı iqtibasdan belə məlum olur кi, həqiqi biliкlərin yaradılması üçün bütün məsuliyyəti öz üzərinə götürən dəyişməz struкturlar epistemoloji fiкrin inкişafının başlıca hərəкətverici qüvvəsini təşкil etməlidir.

Epistemoloji problematiкanın yaranmasının mühüm səbəblərindən biri idraк prosesində mövcud qanunlardan кənara çıxma hallarının, elmi sübutların, irəli sürülən tezislərin əsaslandırılmasının heç də həmişə birmənalı olmamasıdır. Adətən belə hallarda idraк prosesinin həqiqiliyini, adeкvatlığını şərtləndirən mühüm əsasların dərк olunmasına ciddi zərurət yaranır. Epistemoloji tədqiqatlar eyni zamanda realizmə və rasionalizmə söyкənən elmi dilin olmasını da tələb edir. Epistemologiya üçün əyaniliyin və anlamanın da mühüm əhəmiyyəti vardır. Epistemoloji tədqiqatların veкtoru bir qayda olaraq rasionaldan reallığa doğru istiqamətləndiyindən burada əкs istiqamətdə hərəкət qətiyyən mümкün olmur (11, 121-123).

Hazırda fəlsəfi dairələrdə belə bir fiкir dolaşmaqdadır кi, on doqquzuncu yüzilliyin axırlarından etibarən epistemologiya varlıq haqqında təlim olan ontologiyanı qabaqlayaraq onun üzərində aşкar nəzərə çarpan üstünlüк qazanmasıdır. Məhz bu vaxtdan etibarən epistemologiyada idraкın səhihliyi, struкturu, adeкvatlığı, ciddiliyi

haqqında mükəmməl əsaslandırılmış məsələ qaldırılaraq əqlin, zəkanın timsalında «münsiflər məhkəməsi» qurmağa təşəbbüsü göstərilmişdir. Bu dövrdə psixologiyanın işə cəlb edilməsi yolu ilə epistemologiyanın "naturallaşması" prosesi də baş vermişdi. Belə ki, bu zaman güman edilirdi ki, dünyanın aydın mühakimələr yolu ilə dərki yalnız psixologiyadan keçir. Bu halda nəzərə almaq lazımdır ki, həqiqətin uyğunluq, biliyin isə təsəvvür kimi qəbul edilməsinin özü bir çox cəhətdən problem xarakter daşıyırdı. Belə bir fikirlə razılaşsaq ki, mühasibimizin biliyinin qiymətləndirilməsində "O, nə isə bilir" və "O, bilir" ifadələrinin fərqləndirilməsinə ehtiyac vardır. O halda biz biliyə bir tərəfdən, insanla obyekt arasında, digər tərəfdən insanla onun daşıdığı mühakimə arasındakı münasibət kimi baxa bilərik. Biliyin mahiyyətinə yanaşmada birinci nöqteyi-nəzərin perseptial, ikinci nöqteyi-nəzərin isə mühakimə xarakterli olduğunu görmək çətin deyil. Elmdə qərarlaşmış tarixi-fəlsəfi ənənələri nəzərə alaraq birinci nöqteyi-nəzəri C.Lokksa, ikinci nöqteyi-nəzəri isə R.Dekarta aid etmək olar. Deyilənlər belə bir obrazlı fikir söyləməyə əsas verir ki, epistemologiya həmişə "iki sərhəd arasına pərçim edilmiş məkanda fəaliyyət göstərmişdir" (3, 163). Belə ki, obyektiv həqiqətin dərk edilməsi cəhdi, bir tərəfdən, "Mən hadisələr dünyasından necə qaça bilərəm?, digər tərəfdən, daha mürəkkəb görünən "Mən ideyalar məngənəsindən necə can qurtara bilərəm?" sualları ilə bağlı olmuşdur.

Bununla da epistemoloji polyarlıq metodoloji, fəlsəfi doktrinalardan (empirizm və rasionalizm) hər birinin muxtariyyətini deyil, olsa-olsa, onların bir-birinin tamamlayaraq nümayiş etdirdikləri effektliliyi möhkəmləndirmişdir.

Fransız epistemologiyasının tanınmış nümayəndəsi Qaston Başlyar qeyd edirdi ki, "elmi surətdə düşünmək, bir tərəfdən, nəzəriyyə ilə praktika, digər tərəfdən riyaziyyat ilə təcrübə arasında aralıq epistemoloji mövqe tutmaq deməkdir". Onun inamına görə təbiət qanununu dərk etmək üçün onu eyni zamanda həm fenomen (hadisə), həm də noumen (mahiyyət) kimi anlaşılmaq lazımdır (3, 220). Buradan belə bir nəticə alınırdı ki, epistemoloji sahə özünün ilk başlanğıc halından etibarən aralıq xarakter daşımışdır və buna görə də o, səlt (bütöv) olub, intellektual sektorlara-empirizm, rasionalizm, məntiqi, tarixi sahələrə bölünə bilməz. Epistemoloji təkamülün söykəndiyi başlıca fakt bundan ibarətdir ki, xüsusi elmi biliyin inkişafı həmişə yalnız bir istiqamətdə-rasional əlaqələrin müəyyənləşdirilməsi istiqamətində getmişdir. Buna görə də, biliyin irəliləmə hərəkəti həmişə elmi nəticələrin artımı ilə müşayiət olunur. Elmi tədqiqatın epistemoloji oxu ümumi özbaşınalıq ilə heç bir əlaqəsi olmayan real bir oxdur. Bu oxun hesablanması öz başlanğıcını reprezentasiyaların (təsəvvürlərin) dəqiqliyi problemindən götürür. Məhz mövcud biliklər sistemində reprezentasiyaların obyetktlə uyğunluğunun yoxlanılması epistemologiyanın mühüm vəzifələrindən biridir.

Reprezentasiyalar formal və intuitiv olur. İntuitiv reprezentasiyalarda əlavə məntiqi əməliyyatlardan istifadə etmədən, yəni xalis intuitiv yolla obyektin əsas xarakteristikasını, davranış xüsusiyyətlərini, qanunauyğunluqlarını müəyyənləşdirmək olur. Bu halda materialın mənimsənilməsi bir nöqtəyə cəmləşdirildiyindən onun dərki qısa bir müddətdə həyata keçirilir.

Formal reprezentasiyanın isə məxsusi özəllikləri vardır: burada anlayışların əsaslandırılması və eksplikasiyası (dəqiqləşdirilməsi) onların

mənasının və terminoloji uyğunluğunun diqqətli yoxlanılmasını tələb edir. Beləliklə, həm formal, həm də intuitiv reprezentasiya epistemologiyanın tərkibinə daxil olur. Buna görə də epistemologiyanın elmi problemlər dairəsi ona qohum olan qnoseoloji problemlərdən bir sıra cəhətlərinə görə fərqlənir. Reprezentasiyanın hər iki növü universal bir tarixi kontekst yaradır, başqa sözlə, bu reprezentasiyalar antik və orta əsr mütəfəkkirlərini düşündürən, lakin öz zəmanəsində rasional həllini tapmayan problemləri dövrümüzün rasional və qeyri-rasional, məntiqi və intuitiv problemləri ilə bağlayır.

Epistemoloqlar simvolik məntiqin dilindən istifadə etməklə hissi idrakdan rasional idraka, empirik bilikdən nəzəri biliyə, sözdən obyektə keçilməsinin rasionalcasına dərk edilməsi imkanlarını axtarırlar. Fərdi şüur haqqında bilgilər burada bir o qədər də əhəmiyyət kəsb etmir. Klassik qnoseologiya üçün “empirik” və “nəzəri” anlayışların dəqiq fərqləndirilməsi səciyyəvi olsa da, epistemologiya üçün problemin həllinə “analitik” və “sintetik” terminlərin qatılması daha önəmli görünür. R.Rortinin qənaətinə görə epistemologiyadan insan həyatının ixtiyari sahəsinin xarakteristikası üçün “formal” və ya “struktur”, “qramatik”, “məntiqi” və ya “konseptual” anlayışlardan istifadə edilməsinin əsasını İ.Kant qoymuşdur (3, 102). Görmək çətin deyil ki, bu halda idrak prosesində subyektin rolunun alçaldılması aktı baş verir.

Elmdə həmişə elə situasiyalar olmuşdur ki, bu halda onu tədqiqatçının nə daxili aləmi, nə əhval-ruhiyəsi, nə temperamenti, nə dini məzhəbi, nə də milliyyəti deyil, yalnız elmi biliyinin məntiqi və inkişafı maraqlandırmışdır. Elmi idrakın subyekti elmi fəaliyyətin həmişə bir qütbünü, obyekt isə onun digər cazibə qütbünü təşkil etmişdir. İdrak prosesi üçün birqütblü model nəinki qəbul edilməzdir, hətta, bu mümkün deyil. Bununla belə idrak nəzəriyyəsi üçün ənənəvi olan bu materialın interpretasiyasında real irəliləyişlər də yox deyil. Məsələn, rus tədqiqatçısı V.Parus epistemologiya üzrə axtarışlarında belə bir situasiyaya diqqət ayırır ki, tədqiqatçılar içərisində epistemoloji mühakimələrdə “subyekt” anlayışını “fikri kollektiv” anlayışı ilə əvəz etməyi təklif edənlər də tapılır. Bu mövqedə duranlar üçün obyekti idarə edən qanunauyğunluqların müəyyən edilməsi, xüsusilə önəmlidir.

Haqqında fikir yürütdüyümüz məsələnin bu cür qiymətləndirilməsi təsadüfi deyil, belə ki, həmin tədqiqatçılar “fikri kollektiv” dedikdə, hər şeydən əvvəl, qanunauyğunluqları nəzəri mənimsəyən substansiyanı başa düşürlər. V.Parus epistemoloji sistemin qurulması üçün əlavəlilik prinsipinə istinad edilməsini təklif edir ki, bu da, o deməkdir ki, “subyekt” kateqoriyasının məzmunu yalnız bir-birini tam transenden kollektiv və fərdi təsvir baxımından açıla bilər. Lakin “subyekt” kateqoriyasının məzmununun açıqlanması üçün ayrı-ayrılıqda bu təsvirlərin heç birisi məqbul sayıla bilməz (9). Postanalitik yeniliklər birinci növbədə bununla bağlıdır ki, burada idrak prosesi ənənəvi qnoseologiyada olduğu kimi bir-birindən kəskin fərqləndirilən idrak obyekti və idrak subyekti kimi deyil, iki müsahibi və müvafiq situasiyanı ehtiva edən üç tərəfin qarşılıqlı əlaqəsi kimi təqdim olunur (2, 25).

Müasir epistemoloji tədqiqatlar problematikasının dairəsi özünün geniş bir sahəyə səpələnməsi ilə fərqlənir. Alimlərin qənaətinə görə aşağıdakı problemlər dərin epistemoloji məna daşıyırlar:

-“fikri-kollektivlərin” daxilindəki intellektual kommunikasiya;

-elmin inistitutlaşması, onun hakimiyyətinin və idarəetmə problemlərinin yaranması;

-fikri-kollektivlərdə tənqidi meylin həm güclənməsi, həm də zəiflənməsi amillərinin mövcud olması;

Müasir epistemologiyanın diqqət çəkən məsələləri içərisində təhlil prosedurasının mahiyyətinin aydınlaşdırılması, rasional təhlili qeyri-rasional təhlildən fərqləndirən üsulların müəyyənləşdirilməsi də önəmli yerlərdən birini tutur. Burada intellekt üzərində aparılan əməliyyatlara və insanın idraka olan tələbatlarının "əsaslandırılmasına"da epistemologiyada böyük ümidlər bəslənir. Tədqiqatın konseptual-empirik, analitik-sintetik, dil-faktiki plastalarının fərqləndirilməsi məsələlərin də epistemoloji problemlərdən sayılır. Bütün bu problemlər dairəsi isə yalnız bir məqsəddə-həqiqət axtarışları prosesində həqiqi biliklərin alınması işinə xidmət edir. Problemlərin belə zənginliyi içərisində düzgün oriyentasiya götürməyi bacarmaq üçün aydın başa düşmək lazımdır ki, müasir epistemologiyanın həmişə yeniləşdirilməyə ehtiyacı vardır. (7) Epistemologiyanın yeniləşdirilməsi gedişində "elmi biliyin xüsusi epistemoloji statusu" haqqında təsəvvür onun əsas müddəalarından birinə çevrilmişdir. Bu mülahizə, bir tərəfdən, elmi biliyin, ümumiyyətlə, biliyin digər növlərindən (fəlsəfi bilik, adi bilik, rasionallıqdan kənar biliklər) fərqlənməsi faktı ilə, digər tərəfdən, yalnız elmi biliyin sosial və dəyəri birtərəfliliyə malik olması təsəvvürü ilə bağlıdır. Yalnız belə bir təməlin olması elmin əsas məqsədi sayılan obyektiv və həqiqi biliyin alınmasını təmin edə bilər. Elmi biliyin "xüsusi epistemoloji statusa" malik olması məsələsi onun qarşısına qoyulan bir sıra tələblərlə bağlıdır.

Əvvəla, alim elmi idrak prosesinin subyekti kimi bu prosesdə iştirak etməklə özünün insani subyektiv keyfiyyətlərindən məhrum olaraq bir növ özünün şəxsiyyətini və subyektivlik sərhədlərini aşan transendent subyektə çevrilir. İkincisi, bu məqsədlərdə imperativ məntiqi empirist monizm mövcuddur, belə ki, obyekt haqqında neytral və həqiqi bilik çeşidli deyil, yalnız bir ola bilər. Üçüncüsü, belə bir məqsəd eksternalistlərlə internalistlərin bir-birinə qarşı durması faktının təkzibi deməkdir. Eksternalistlər dövlət sifarişlərinin və proqramlarının şərtlənən tədqiqat predmetinin seçilməsinə, həm elmi idrakda istifadə olunan metod və üsulların müəyyənləşdirilməsini, həm də elmi kollektivlərin apardıqları tədqiqatların statusunun və istiqamətinin müəyyən edilməsinə güclü determinəedici təsirini qəbul edirlər. Müasir epistemologiya amorf və bircinsli olmayıb, müxtəlif növlərə ayrılır. İyirminci əsrin epistemologiyası onun aşağıdakı modellərini ehtiva etmişdir: təkamüllü, genetik, naturallaşdırılmış, hipotetik-deduktiv, kumulyativ, antropoloji, tarixi-təkamüllü və s. Təkamüllü epistemologiya idrakı prosesin inkişafını canlı təbiətin təkamülünə analoji şəkildə öyrənir. Bu elm müxtəlif bioloji səviyyələrdə idrakı proseslərin iyerarxiyasının təyin edilməsi və insan idrakının xassələrinin və inkişaf mexanizminin aydınlaşdırılması məsələləri ilə məşğul olur. Elmə "təkamül epistemologiyası" anlayışın D. Sempbell daxil etmiş və onun sonrakı işlənilməsi isə K.Ponner və St.Tulminin adı ilə bağlanmışdır. K.Ponner belə bir fikri həmişə əminliklə təbliğ etmişdir ki, epistemologiyanı, başqa sözlə elmi tədqiqatlar məntiqini elmi metod nəzəriyyəsi ilə eyniləşdirmək vacibdir. İdrak prosesinin özü də genetik epistemologiyanın predmeti sayılır, lakin bu halda inkişafın daha aşağı sahəsindən daha yüksək səviyyəsinə keçidi təmin edən

ontogenetik funksiya ilə qarşılaşır. Genetik epistemologiyaya görə konstruktiv generalizasiya və refleksiv abstraksiya inkişafının əsas daxili mexanizmini təşkil edir. Genetik epistemologiyanın banisi J.Piajs hesab edilir. O, koqnotiv inkişafı dörd mərhələyə ayırır və onların formalaşmasını aşağıdakı ardıcıllıqla sıralayır: sensor mərhələ (2 yaşınadək), intuitiv mərhələ (7 yaşınadək), konkret-operasional mərhələ (12 yaşınadək) və formal-operasional mərhələ (15 yaşınadək).

U.Kuaynın təklif etdiyi naturalaşdırılmış epistemologiya empirik psixologiyanın b. s. təbii elmlərin bir hissəsi kimi baxılır. Bu elm təbii hadisələri, xüsusi halda isə fiziki obyekt kimi insanı öyrənir. Dünyanın qavranılması və informasiyanın alınması prosesində və subyekt üç ölçülü universumun təsvirini verdikdə bu obyektlərə eksperimental olaraq nəzarət etmək mümkündür. Geniş naturalaşdırılmış epistemoloji proqresə çıxış edən Kuaynays epistemoloji tədqiqatları filosofların kabinetlərindən elmi laboratoriyalar meydanına çıxarmaq vaxtı çatmışdır.

Epistemoloji modellərin təsvirini davam etdirsək yuxarıda deyilənlərə bunu əlavə edə bilərik ki, tarixi-təkamüllü epistemologiyaya başlanğıc verən T.Kun, antropoloji epistemologiyanın yaradıcısı M.Poloni olmuşdur.

Epistemologiyanın inkişafının müxtəlif istiqamətlər götürməsinə baxmayaraq E.Aqassinin belə bir nəticəsi nəzəri cəlb edir ki, XX əsrin epistemologiyası elmin tamamilə yeni bir obrazını yaradır: obyektivliyin və ciddiliyin mühüm şərtləri burada hələ də yaşamaqdadır, lakin onlar artıq elmi biliyin nisbiliyi və təkzib edilənliyi ilə müşayiət olunurlar. Belə bir mövqe isə elmi biliklərin mütləqliyinə olan bütöv inamın yaranması yolunda maneəyə çevrilir. Biliklərimizin mütləq olmaması isə özlüyündə göstərir ki, onlara tam və yaxud müəyyən sərihlik isnad vermək olmaz (1, 75).

Buna görə də, müasir epistemoloqların əksəriyyəti elmin instrument olması mövqeyindən cıxış edərək elmi nəzəriyyələrə, hərəkətlərimizin effektli koordinasiyasını, etibarlı proqnozları və planlaşdırmaları təmin edən instrumentlərə müraciət edirlər. Buradan istər-istəməz belə nəticə alınır ki, elmin başlıca vəzifəsi onun praqmatik olması yəni hökmən faydalı olmasıdır.

Epistemologiya ilə bağlı nəzərdən keçirmək istədiyimiz əsas məsələlərdən biri də epistemologiyanın məna və məndərəcəsinə görə ona yaxşı olub, lakin müəyyən aspektlərinə görə ondan fərqlənən qnoseologiya və metodologiya anlayışları ilə münasibətlərini müəyyənləşdirmək, bu anlayışların vəhdət və fərqini aydınlaşdırmaqdır (8).

Epistemologiyadan fərqli olaraq qnoseologiya çıxış nöqtəsindən başlayaraq nəticələrinə qədər bütün idrak prosesinin bir tam kimi ehtiva edən idrak nəzəriyyəsi kimi təfsir olunur. Bir qütbündə idrakda və təfəkkürdə obyektin, digər qütbündə subyektin yerləşdiyi subyekt-obyekt münasibətlərindən kənarda qnoseologiya təsəvvür edilməzdir.

Qnoseologiyada ümumi planda subyekt anlayışı ilə fəaliyyətdə olan, şüura və iradəyə malik fərd və ya fərdlər qrupu nəzərdə tutulur. Obyekt anlayışı ilə üzərinə insanın idrakı fəallığının istiqamətləndiyi reallıq fraqmenti, təbii və ya sosial varlığın hissəsi başa düşülür. İnsanın gerçəkliyə idrakı münasibətini öyrənməklə məşğul olan qnoseologiya subyektin timsalında idrak prosesinin iştirakçısını görür. Subyekt

konkret-tarixi şəraitdən və sosial-mədəni amillərdən asılı olub, öz fəaliyyətində ictimai praktikanın inkişafı ilə xeyli məhdudlanır.

"İdrak subyekti" anlayışının müasir anlamı öz başlanğıcını idrakın təhlilinin çıxış nöqtəsini subyekt və obyektin bir-birinə qarşı qoyulmasında görən R.Dekartdan almış, bu sahədə sonrakı addım isə subyektin daxili təşkili qanunlarını açmağı qarşısına məqsəd qoyan, kateqoriyaları mühakimə forması, təsəvvürləri isə aprior və aposterior bilik növü kimi qəbul edən İ.Kant tərəfindən inkişaf etdirilmişdir.

Metafizik materializm subyekt və obyektin qarşılıqlı münasibəti məsələsini həll etməkdə aciz idi. Bu təlimdə subyekt mahiyyəti onun təbii mənşəyi ilə əlaqələndirilən ayrıca təcrid edilmiş fərd kimi, obyekt isə subyektdən asılı olmayan obyektiv dünya kimi başa düşülürdü. Onların münasibəti yalnız obyektin və subyektin qarşılığı təsiri kimi müəyyən edilir və bu halda sonuncu passiv, məqsəd və maraqlardan məhrum bioloji varlıq kimi qəbul edilirdi. Əgər L.Feyerbaxa görə bizim "Mən" obyektin təsirinə məruz qaldığı üçün obyekti dərk edirsə, K.Marksa görə subyekt obyektə təsir etdiyi üçün onu dərk edir. İdrak prosesindən subyektin bu fəal-fəaliyyət rolunu idealizm çox yaxşı başa düşülmüşdür. Lakin, idealizm subyektin idrakı rolunu həddən artıq şişirdərək obyekti törəmə, subyektiv fəallıqdan asılı elan etmişdir. "Şey mənim duyğularımın kompleksidir" tezisinin üstünlük qazandığı subyektin idealizmi də obyekt idrak prosesindən faktiki olaraq uzaqlaşdırılırdı.

Subyekt və obyektin obyektiv mövcudluğunu qəbul edən müasir qnoseologiya əsas diqqəti onların əlaqə və qarşılıqlı təsirinə doğru yönəldir. Burada obyekt reallığın fraqmentindən "insanlaşdırılmış" obyektə çevrilərək subyektlə qarşılıqlı təsirin gedişində ciddi dəyişikliyə uğrayır. Subyekt abstrakt bioloji fərd kimi deyil, tarixi prosesdə götürülən və daima inkişaf edən sosial varlıq kimi qəbul edilir. Subyekt və obyektin qarşılıqlı təsiri yaradıcı xarakter daşıyır. Lakin, obyektlə qarşılıqlı təsirdə fəal qüvvə kimi çıxış edən insanın hərəkət və davranışları ixtiyari olmur. Belə ki, obyekt və konkret-tarixi inkişafın səviyyəsi subyektin fəaliyyəti üzərinə müəyyən məhdudiyyətlər qoyur.

Epistemologiya ilə metodologiyanın münasibətinin araşdırılması da mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir.

Metodologiyanın məqsədi elmi və sosial idrakı praktikada yoxlanılmış və aprobasiya edilmiş fəaliyyət qaydaları, normaları və metodları ilə təchiz etməkdir. Bu fəaliyyət üsulları və subyekt qarşısına qoyulan tələblər gerçəklik qanunları əsasında formula edilir. Metodologiya nəzəri və praktiki fəaliyyətin təşkilinin prinsip və üsulları sistemi, həmçinin bu sistem haqqında təlim kimi başa düşülür. Obrazlı desək, metodologiya metodun "sirrini" bilir və təfəkkürün texnologiyasına yiyələnir. Buna görə də metodologiya biliyin müasir səviyyəsini qərarlaşmış dunya mənzərəsini nəzərə almaqla idrak prosesinin tənzimləyir. Hazırda metodologiyanın iki səviyyəsini fərqləndirmək olar (8). Birinci səviyyə-instrumental səviyyə adlanır.Burada fikri və praktiki əməliyyatların gedişini təmin edən tələblər formalaşır, fikrin və fəaliyyətin məzmunu deyil,gedişatı müəyyən edilir. Metodologiyanın ikinci səviyyəsi olan konstruktiv pillədə biliyin zənginləşməsi, yeni məzmun almasi hadisəsi baş verir.Müasir mərhələdə metodun məzmununda obyektiv və subyektiv tərəfləri müəyyənləşdirməklə yanaşı onların son dərəcə dayanıqlı və aprior olan strukturu haqqındada söhbət ğetməkdədir (5, 17, 23).

Metodun obyeкtiv tərəfini ğercəкliyin dərк olunmuş qanunauyğunluqları ilə,subyeкtiv tərəfini isə həmin qanunauyğunluqlar əsasında insanların obyeкti tədqiq etməк və praкtiкi dəyişdirməк məqsədilə işləyib hazırladıqları üsullar ilə bağlayırlar.Hegel metodu subyeкtə obyeкtlə qarşılıqlı təsirə girməsi üçün imкanı yaradan alət кimi başa düşürdü.Qeyd etməк lazımdır кi,idraк metod vasitəsilə obyeкtiv qanunauyğunluq subyeкtin fəalliyyət qaydasına cevrilir.

Metodlar haqqında nəzəriyyə olan metodologiya ceviк və mütəhərriк və dinamiк nəzəriyyə olub,elmlərin inкişafı ilə əlaqədar olaraq daim dərinləşməкdədir (8,14-22). Bu nəzəriyyənin inкişafı qarşımıza həlli mühüm evristiк əhəmiyyət кəsb edən yeni-yeni suallar qoyur. Məsələn,metodun elementləri icərisində hansı elementləri invariant,hansı elementləri mütəhhəriк,zamanca dəyişкən qəbul etməк olar? "Metod" termini nə dərəcədə dəqiqdir və onun imperativliк gücü nə qədərdir? Metod, bir tərəfdən, insanın mövqeyindən, digər tərəfdən zərurətdən nə dərəcədə asılıdır? Metod sybyeкti nəyə məcbur edir və nəyə imкan verir? Bu sualların hələ öz həllini gözləməкlə metodoloji problematiкanın gələcəк inкişafı üçün geniş imкanlar yaradır (6).

### ƏDƏBİYYAT


1. Агацци Э. Моральное измерение науки и техники. М.: 1998.
2. Американский философ Джованна Боррадори беседует с Куайном, Дэвидсоном, Патиэмом, Нозиком, Данто, Рорти, Кэйвлом. М.: 1998.
3. Башляр Г. Новый рационализм. М.: 1987.
4. Ильин В.В. Теорая познания. Эпистемология. М.: 1995.
5. Кравец А.С. Методология науки. Воронеж: 1991.
6. История и философия науки, М.: СПб: Питер,… 2006, 368 с.
7. Лешкевич Т.Г. Возможна ли бессубъектная епистемология? Основы философии в вопросах и ответах. Ростов / Д., 1997.
8. Məmmədov Ə.B. Dialeкtiк idraк və ümumelmi tədqiqat metodları. Baкı: Azərnəşr, 1997.
9. Парус В.П.Эпистемология:некоторые тенденции вопросы философии. 1997, №-2.
10. Рорти.Р. Философия и зеркало природы. Новосибирск: 1991.
11. Эволюционная эпистемология: Проблемы и перспективы. М.: 1996.


## ЭПИСТЕМОЛОГИЯ: ПОИСКИ ОСОБЕННОСТЕЙ ЧЕЛОВЕЧЕСКОГО СОЗНАНИЯ

### РЕЗЮМЕ


**А.А.АЗИЗОВА**



Статья посвящена научно-философскому зарождению эпистемологии, которая занимается выявлением особенностей вашего сознания. В ней освящаются причины зарождения эпистемологии, определены роли понятий «субъект» и «объект» в научных исследованиях, объясняется единство и разница эпистемологии, гносеологии и методологии.


## EPISTEMOLOGY: THE REVEALING OF THE PECULIARITY OF HUMAN CONSCIOUSNESS

**A.A.AZIZOVA**

**SUMMARY**

This article is dedicated to the philosophical origin of the epistemology which is busy with the revealing of the peculiarity of human consciousness. There being lighted up the reason of the origin of epistemology, being determined the role of conception “the subject “ and the “object” in various scientific researches, explained the unity and the differences of epistemology, gnosiology and the methodology of course.